2019-cu il dekabrın 23-nə keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Nailə Əsgərovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 29 dekabr 2019-cu il tarixli 42 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 29 dekabr 2019-cu il

2019-cu il dekabrın 29-da Masallı rayonunun Musaküçə kənd sakinləri Rzayev Nizami Əsgər oğlu və Rzayev Ramiz Şahmur oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, 70 saylı Masallı şəhər seçki dairəsinin 34 və 35 saylı seçki məntəqələrində ciddi qanun pozuntularının baş verdiyini bildirmiş, bu pozuntuların araşdırılmasını və müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü Nailə Əsgərova həmin müraciəti nəzərdən keçirərkən onun müddət ötürülməklə verildiyini müəyyən etdim.

Azərbaycan Respubliası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1.1-ci və 4.1.2-ci bəndlərinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət verilə bilər.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1.1-ci, 1.2-ci, 4.1.2-ci, 7.1-ci və 7.10.2-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Masallı rayonunun Musaküçə kənd sakinləri Rzayev Nizami Əsgər oğlu və Rzayev Ramiz Şahmur oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 29 dekabr 2019-cu il tarixli 42 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçiyə geri göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Nailə Əsgərova